**ƏTRAF MÜHİT, TƏBİİ EHTİYATLAR VƏ SAĞLAMLIĞIN QORUNMASI KOMİSSİYASI**
**ALTINCI İCLAS**

## "Su ehtiyatları və torpaqların idarə edilməsi"

**HESABAT MƏRUZƏSİ**

# I. GİRİŞ

1. TURKPA-nın Azərbaycan Respublikasının paytaxtı Bakı şəhərində keçirilən 9-cu Plenar iclasında 2020-ci il üçün təsdiq olunmuş Fəaliyyət planına uyğun olaraq Komissiyanın altıncı iclasının əsas mövzusu "Su ehtiyatları və torpaqların idarə edilməsi" olaraq müəyyən edilib.
2. Su ehtiyatları kənd təsərrüfatı xüsusi nəzərə alınmaqla davamlı inkişaf üçün vacib faktor olub qida təhlükəsizliyi, yoxsulluq, iqlim dəyişikliyinə uyğunlaşma, iqlim dəyişikliyinin fəsadlarının aradan qaldırılması, eləcə də dünyanın hər tərəfində kənd yerlərində yaşayan milyonlarla insan üçün əhəmiyyət kəsb edən təbii qaynaqların azalması və qurtarması ilə birbaşa əlaqəlidir.
3. TURKPA-nın üzv ölkələri Minilliyin İnkişaf Məqsədləri və Dayanıqlı İnkişaf Məqsədləri kimi BMT-nin əsas sənədlərində əks olunan dayanıqlı ətraf mühit kontekstində su ehtiyatlarının idarə edilməsi sahəsində konkret işlər görürlər.
4. Bunlar nəzərə alınaraq, TURKPA-nın Ətraf Mühit və Təbii Ehtiyatlar Komissiyası yaradıldığı vaxtdan etibarən su ehtiyatlarının və torpaqların idarə edilməsi ilə birbaşa əlaqəsi olan mövzular ilə bağlı 5 Komissiya iclası və 3 seminar təşkil edib.
5. 2 aprel 2015-ci ildə Ankarada "Türkdilli ölkələrdə səhralaşmanın qarşısının alınması" mövzusunda keçirilən komissiya iclasının tövsiyə qərarında səhralaşmanın qarşısının alınması da daxil olmaqla ətraf mühitin qorunması sahəsində beynəlxalq səviyyədə qəbul edilmiş standartların milli qanunvericilik aktlarına uyğunlaşdırılması ilə bağlı TURKPA-ya üzv ölkələrin milli parlamentlərinə və hökümətlərinə təkliflər əks olunub.

6. 24 noyabr 2016-cı ildə Bakıda keçirilən Komissiya iclasında “Qlobal iqlim dəyişiklikləri: TURKPA üzv ölkələri üçün səbəb və nəticələr” mövzusu müzakirə olunub və iclasda qəbul edilən tövsiyə sənədində BMT-nin “İqlim Dəyişmələri haqqında Çərçivə Konvensiyası”na üzv ölkələrin iştirakı ilə konfransların keçirilməsi və işçi qrupların iclaslarının təşkil edilməsi ilə iqlim dəyişikliyi və davamlı inkişaf ilə əlaqəli mövzularda mütəmadi məsləhətləşmələrin aparılmasının vacibliyi vurğulanıb.
7. Komissiyanın 22 iyun 2017-ci ildə Astanada keçirilən iclasının gündəliyin əsas maddəsi “Üzv ölkələrdə alternativ enerji mənbələrinin inkişafı” olmuşdur. Həmin iclasın tövsiyə qərarında üzv ölkələrdə bərpa olunan və alternativ enerji mənbələrinin inkişafı üçün hüquqi bazanın təkmilləşməsinin əhəmiyyəti vurğulanıb.
8. 16-18 aprel 2018-ci il tarixində İstanbulda “Tullantıların idarə edilməsi və geni dəyişdirilmiş orqanizmlər ilə bağlı qanunvericilik və həyata keçirilməsi” mövzusunda keçirilən seminarın yekun hesabatında tullantıların toplanması və idarə edilməsi ilk növbədə ətraf mühitin və insanların sağlamlığının qorunması ilə əlaqələndirilib və həmin sənəddə tullantıların idarə edilməsi sahəsində və qanunvericilik aktları bağlı təcrübə mübadiləsinin əhəmiyyəti qeyd olunub.
9. 30 may 2019-cu ildə Bişkekdə keçirilən komissiya iclasında “Təbii ehtiyatların ətraf mühitə müvafiq qaydada istifadə olunması: hüquqi dəstək” mövzusu müzakirə olunduqdan sonra qəbul olunan tövsiyə qərarında ölkələrin inkişafı üçün strateji əhəmiyyət kəsb edən təbii ehtiyatların qorunması məqsədi ilə insanlarda məsuliyyət hissinin artmasına və ekolji dünya görüşünun formalaşmasına nail olmaq üçün sosial fəaliyyətlərin zəruriliyi vurğulanır.
10. Qəbul edilmiş sənədlərdən də göründüyü kimi, TURKPA-ya üzv ölkələr ətraf mühitin mühafizə edilməsi, su və torpaq kimi təbii ehtiyatların səmərəli istifadə edilməsi sahəsində ortaya çıxan problemləri həll etməkdə maraqlıdırlar.
11. Bu hesabatın hazırlanmasında əsas məqsəd mövzu ilə bağlı regional əməkdaşlıqda prioritet məsələləri müəyyən etməkdir. Hesabat Azərbaycan, Qazaxıstan, Qırğızıstan və Türkiyənin müvafiq Nazirliklərindən, eləcə də əlaqədar beynəlxalq qurumlardan əldə olunan məlumatlar nəzərə alınaraq hazırlanıb.

## II. SU EHTİYATLARI VƏ TORPAQLAR SAHƏSİNDƏ BEYNƏLXALQ ƏMƏKDAŞLIQ

12. Qida təhlükəsizliyi, yoxsulluğun azaldılması, ətraf mühitin qorunması və iqlim dəyişikliyi ilə bağlı narahatlıqlar gündən-günə artır. Buna görə də, su ehtiyatları və torpaqların davamlı şəkildə idarə olunması üzrə beynəlxalq əməkdaşlıq bir çox müəssisələrdə prioritet məsələyə çevrilmişdir.

13. Yuxarıda qeyd edildiyi kimi, su ehtiyatları və torpaq üzrə beynəlxalq əməkdaşlıq, 1940-cı illərdə ərzaq təhlükəsizliyi ilə bağlı narahatlıqlar fonunda başlamışdı. Son 50 ildə, sürətlə artan qida və şirin suya olan tələbatı ödəmək üçün insanlar ekosistemləri əvvəlki dövrlərlə müqayisədə daha sürətlə və əsaslı şəkildə dəyişdirdilər. Təbii ehtiyatların nizamsız istifadəsinin ətraf mühitə olan mənfi təsirləri yerli, regional və qlobal miqyasda getdikcə daha aydın şəkildə görünməkdədir.
14. 1980-ci illərdən etibarən BMT davamlı inkişafı təmin etmək üçün qlobal dəyərlər və prinsiplərin müzakirə olunduğu forum kimi fəaliyyət göstərir. 1992-ci ildə BMT-nin Rio-de-Janeyroda keçirilən sammitindən sonra təbii ehtiyatların davamlı şəkildə istifadəsi və idarə edilməsi əsas diqqət mərkəzinə çevrilmişdir. Minilliyin Zirvəsi (2000) və Davamlı İnkişaf üzrə Yohannesburq Sammiti (2002) kimi mühüm dəyişikliklərə səbəb olan konfranslar 2002-ci ildə Minilliyin İnkişaf Məqsədlərində (MİM) ümumiləşdirilmiş qlobal inkişaf gündəliyinin formalaşmasına töhfə verdi.
15. BMT-nin "Səhralaşma ilə mübarizə üzrə" Konvensiyası, "Bioloji müxtəliflik haqqında" Konvensiyası və "İqlim Dəyişmələri üzrə Çərçivə" Konvensiyasının hər biri su ehtiyatları və torpaq idarəedilməsi ilə mühüm əlaqələrə malikdir.
16. Beynəlxalq əməkdaşlıq ölkələrə öz aralarında məlumat mübadiləsi aparmaq və regional, milli və yerli səviyyədə tətbiq oluna biləcək prinsip və yanaşmaları daha da inkişaf etdirmək üçün imkanlar yaratmışdır. Lakin ayrı-ayrılıqda vacib komponent prinsipləri barədə razılığa baxmayaraq, davamlı ekosistem kontekstində torpaq və su ehtiyatlarının birgə idarə olunması üçün birləşdirilmiş və razılaşdırılmış prinsiplər toplusu yoxdur. Beləliklə, davamlı torpaq və su ehtiyatlarının idarəçiliyi üçün böyük təşəbbüslərin formalaşdırıla biləcəyi heç bir razılaşdırılmış beynəlxalq inteqrasiya çərçivəsi mövcud deyil. Torpaqların və su ehtiyatlarının idarə edilməsi üçün razılaşdırılmış bir sıra prinsiplər toplusu üzərində işləmək üçün yuxarıda göstərilən razılaşmalardan faydalanmaq lazımdır.

## III. KORONAVİRUSUN (COVID-19) SU EHTİYATLARI VƏ TORPAQLAR ÜZƏRİNDƏ TƏSİRLƏRİ

17. Qlobal COVID-19 pandemiyası dünyanın bütün ölkələrinə mənfi təsir göstərdi. Pandemiyanın ilk günlərindən etibarən TÜRKPA-ya üzv ölkələr xəstəliyin yayılmasının qarşısını almaq üçün ciddi tədbirlər görməyə başladılar. Üzv ölkələrin hökumətlərinin müxtəlif strukturları nəzdində işçi qruplar yaradıldı. Bir sıra sosial təcrid tədbirləri daxil olmaqla, xüsusi karantin rejimi, hətta fövqəladə vəziyyət rejimi tətbiq edildi.

18. Pandemiya zamanı üzv ölkələr üçün başlıca məsələ insanların sağlamlığının qorunması və sosial müdafiəsi idi. Üzv ölkələrdə iqtisadi stabilliyin təminatı, məşğulluq ilə bağlı problemlərin həlli, makroiqtisadi və maliyyə stabilliyin təmin edilməsi məqsədi ilə sosial-iqtisadi dəstək proqramları qəbul edildi.
19. İqtisadi və sosial mövzularla yanaşı, təbii ekosistemlər və mühafizə olunan növlər də koronavirus böhranı zamanı risk altındadır. Bir çox ölkələrdə, milli parklarda, quru və dəniz mühafizə zonalarında ətraf mühitin qorunması sahəsində çalışan işçilərin evlərdə qalması tələb olunduğu üçün bu ərazilərin nəzarətsiz qalmasına və nəticədə meşələrin qanunsuz şəkildə qırılmasına, balıq ovu və heyvanlar aləminin ovlanmasına səbəb olub.
20. Beləliklə, COVID-19 su ehtiyatlarının və torpaqların idarə edilməsinə, eləcə də havaya təsir göstərir. Ancaq onu da qeyd etmək lazımdır ki, COVID-19-un ekoloji ziyanı ilə yanaşı bir çox müsbət təsirləri də mövcuddur. İnfeksiyanın yayılması qlobal səviyədə əhəmiyyətli iqtisadi və sosial sarsıntılara səbəb olmaqla yanaşı, həm də havanın çirklənməsi və istixana qazı tullantılarının əhəmiyyətli dərəcədə azalmasına səbəb olmuşdur.
21. Nəticədə mart, aprel və may aylarında dünyanın böyük şəhərlərində havanın keyfiyyəti nəzərəçarpacaq dərəcədə yaxşılaşdı. Havanın keyfiyyətinin yaxşılaşmasının əsas səbəbləri fabriklərdə iş və yollarda tıxac zamanı havaya buraxılan karbon qazının (CO2), azot oksidlərinin (NOx) miqdarının aşağı düşməsi və ozon qatının (O3) əmələ gəlməsinə səbəb olan maddələrin azaldılmasıdır.
22. Yuxarıda qeyd edilən sənaye və nəqliyyat səbəblərinə məhdudlaşdırma tədbirləri su ehtiyatları və torpaqlara müsbət təsir göstərdi. Bir çox fabrik və zavodların qlobal miqyasda işləməməsi səbəbindən suya və torpağa atılan zərərli tullantıların miqdarı əhəmiyyətli dərəcədə azaldı. Bu amillər bir müddət su ehtiyatlarının və torpaların tükənməsinə səbəb olmuşdu.

## II. ÜZV ÖLKƏLƏRDƏ SU EHTİYATLARININ VƏ TORPAQLARIN İDARƏ EDİLMƏSİ

### Azərbaycan

23. Azərbaycan təbii ehtiyatlar ilə zəngindir və su ehtiyatlarının və torpaqların mühafizə və idarə edilməsinə xüsusi diqqət yetirilir.
24. 29 dekabr 2012-ci il tarixində Azərbaycan Respublikasının prezidenti tərəfindən 800 saylı fərman ilə təsdiq olunan "Azərbaycan 2020: gələcəyə baxış" inkişaf konsepsiyasında, "Milli iqtisadiyyat və iqtisadiyatın əsas sektorları üçü strateji yol xəritəsi"ndə və digər strateji sənədlərdə, dövlət proqramlarında, milli fəaliyyət

planlarında ətraf mühitin mühafizə olunması və təbii qaynaqların səmərəli istifadə olunması ilə bağlı hədəflər müəyyən olunub.

25. Bundan əlavə olaraq, parlament tərəfindən qəbul edilmiş bir sıra qanunlar bu sahədə müvafiq tənzimləməni həyata keçirmək üçün hüquqi çərçivə rolunu oynayıb. Azərbaycan Respublikasının ərazisində su mənbələrinin istifadə və mühafizə edilməsi 1997-ci ildə qəbul edilmiş "Su Məcəlləsi" ilə tənzimlənir. Həmin vaxtdan etibarən məcəlləyə 60-dan çox dəyişiklik edilib.
26. Torpaqların idarə edilməsi ilə bağlı əsas sənəd Azərbaycan Respublikasının "Torpaq Məcəlləsi"dir. Bu qanun 1999-cu ildə qəbul olunmuşdur və parlament tərəfindən məcəlləyə 40-dan artıq dəyişiklik edilmişdir.
27. Bu məcəllələrdən əlavə, su ehtiyatlarının və torpaqların idarə edilməsi ilə bağlı Azərbaycan Respublikasında ayrı sahələrin tənzimlənməsi ilə bağlı bir sıra qanunlar da qəbul olunub.
28. Bunlar "Yerin təki haqqında" (1998), "Su təchizatı və tullantı suları haqqında" (1999), "Bələdiyyələrin su təsərrüfatının idarə edilməsi" (2001), "Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri A" (2000), "Ətraf mühitin mühafizəsi haqqında" (2001), "Torpaq islahatı haqqında" (1996), "Torpaq icarəsi haqqında" (1998), "Bələdiyyə torpaqlarının idarə olunması haqqında" (2001), "Torpaqların dövlət ehtiyacları üçün alınması haqqında" (2010), "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" (2018) Azərbaycan Respublikasının qanunlarıdır.
29. Sudan səmərəli istifadə, su itkisinin qarşısının alınması hər zaman möhtərəm Cənab Prezident İlham Əliyevin diqqət mərkəzindədir. Bu ilin aprel ayında Prezident İlham Əliyevin imzaladığı Sərəncama əsasən ölkə ərazisində su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsi, su təsərrüfatının idarə olunmasının təkmilləşdirilməsi və bu sahədə fəaliyyətin əlaqələndirilməsi məqsədilə Komissiya yaradılıb. Beləliklə, su ehtiyatlarının düzgün qiymətləndirilməsi, layihələrin prioritetlərinin müəyyənləşdirilməsi, su ehtiyatlarının və balansın elektron idarə edilməsi və elektron nəzarət sisteminin yaradılması qarşıdan gələn illərdə Azərbaycan üçün ən vacib məsələdir.
30. 2020-ci il iyulun 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yanında su təsərrüfatının vəziyyətinə həsr olunmuş videoformatda müşavirə keçirilmişdir. Müşavirədə su təsərrüfatında mövcud olan problemlər müzakirə edilmiş, görüləcək işlər haqqında danışılmışdır. Cənab Prezident ölkəmizdə enerji, nəqliyyat və digər sahələrdə həyata keçirilən infrastruktur layihələri haqqında məlumat vermişdir.

**Qazaxıstan**

31. Qazaxıstan Respublikasında su ehtiyatlarının idarə edilməsi hövzə prinsipinə əsaslanır. Qazaxıstanda səkkiz su hövzəsi mövcuddur, onlardan yeddisi transsərhəddir və hər bir hövzə yeraltı və yerüstü su ehtiyatlarının olması ilə fərqlənir.
32. Qazaxıstan Respublikasının Su Məcəlləsinə uyğun olaraq, Qazaxıstan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Su Ehtiyatları Komitəsi (bundan sonra - Komitə) ölkənin su fondundan istifadə edilməsi və onun qorunması sahəsində səlahiyyətli dövlət orqanıdır. Komitəyə bərpa olunan su ehtiyatları da daxil olmaqla, su fondunun idarə edilməsi, istifadəsinin tənzimlənməsi və mühafizəsi funksiyaları həvalə edilib. Komitə öz funksiyalarını bilavasitə və ya Hovuz Su Təsərrüfatı İdarəsi vasitəsilə həyata keçirir.
33. Su ehtiyatlarının idarə olunmasının təkmilləşdirilməsi və beynəlxalq təcrübənin tətbiqi məqsədilə komitə 2004-cü ilin iyun ayından etibarən BMT-nin İnkişaf Proqramının (BMTİP) layihəsi çərçivəsində Norveç hökumətinin və Birləşmiş Krallığın Beynəlxalq İnkişaf Nazirliyinin (BİN) dəstəyi ilə Su Ehtiyatlarının İnteqrasiyalı İdarə Edilməsi və Mühafizə edilməsi Milli Planının işlənib hazırlanmasını həyata keçirir.
34. Qazaxıstan "Sərhəddən keçən su axınlarının və beynəlxalq göllərin mühafizəsi və istifadəsi" üzrə Helsinki, o cümlədən "Ətraf mühit ilə bağlı məsələlərdə məlumatın əldə edilməsi" üzrə Aarhus konvensiyası da daxil olmaqla ətraf mühitlə bağlı 20-dən çox konvensiyanı ratifikasiya edib. Bundan başqa, respublikanın proqram-strateji sənədlərinə əsasən normativ hüquqi aktların Avropa qanunvericiliyi ilə uyğunlaşdırılması üzrə işlər aparılır. 30 iyun 2005-ci ildə Qazaxıstan Respublikasının Prezidenti Qazaxıstan Respublikası ilə Avropa İttifaqı arasında Tərəfdaşlıq və əməkdaşlıq haqqında Saziş üçün Protokolun ratifikasiyası haqqında qanun imzalayıb.
35. Ölkədə Su, Torpaq və Meşə Məcəllələri (2003-cü il), Əhalinin Sanitariya-epidemioloji Rifahı haqqında qanun (2002-ci il), Su İstehlakçılarının Kənd İstehlak Korporasiyası haqqında qanun (2003-cü il) kimi vacib qanunvericilik bünövrəsi mövcuddur. Hazırda Ətraf Mühitin Mühafizəsi haqqında qüvvədə olan qanunu (1997-ci il) əvəz edəcək yeni Ekoloji Məcəllə hazırlanır. Yeni Ekoloji Kodeksin "çirkləndirən ödəyir" prinsipini gücləndirəcəyi planlaşdırılır ki, bu da su resurslarının ekoloji vəziyyətinin yaxşılaşdırılmasına xidmət edəcək.
36. Ümumilikdə, normativ-hüquqi bazada müəyyən çatışmazlıqların olmasına baxmayaraq, Qazaxıstan Respublikasının qüvvədə olan qanunvericiliyi su sektorunda zəruri təşkilati dəyişikliklərə imkan yaradır.
37. Bundan başqa, Qazaxıstan su ehtiyatlarının inteqrasiyalı idarə olunmasına keçid üçün artıq müəyyən üstünlüyə malikdir, çünki su ilə bağlı qanunvericiliyə uyğun olaraq, su obyektləri hövzə prinsipinə əsaslanır və bu da su resurslarının inteqrasiyalı idarə olunmasının birinci prinsipinə uyğundur.

38.1 noyabr 2018-ci il tarixinə olan məlumata görə torpaq balansına əsasən, Qazaxıstan Respublikasının ümumi ərazisi 272,5 mln.hektar təşkil edib ki, bunun da 9,9 mln. Hektarı Baykonur kosmodromunda və hərbi poliqonlarda Rusiya Federasiyası tərəfindən istifadə olunur. Qazaxıstan Respublikası öz növbəsində Özbəkistan Respublikası ərazisində Şımkent sanatoriyası üçün 0,9 min hektar torpaqdan istifadə edir. Nəticədə Qazaxıstan Respublikasının Torpaq Ehtiyatı 262,5 min hektar təşkil edir.

39.Qazaxıstan Respublikasının Torpaq ehtiyatları məqsədindən asılı olaraq 7 kateqoriyaya bölünür: kənd təsərrüfatı torpaqları, yaşayış məntəqələrinin (şəhərlərin, qəsəbələrin və kəndlərin) torpaqları, sənaye, nəqliyyat, rabitə, kosmik fəaliyyət, müdafiə, milli təhlükəsizlik sahələri üçün ayrılan torpaqlar və digər qeyri-kənd təsərrüfatı torpaqları, xüsusi mühafizə olunan təbii ərazilərin torpaqları, sağlamlıq, rekreasiya və tarixi-mədəni təyinatlı torpaqlar, meşə fondu torpaqları, su fondu torpaqları və ehtiyat torpaqları.

40.Bu gün torpaqların deqradasiyası torpaq münasibətlərində aktual problemdir. Torpaqların deqradasiyasının ən təhlükəli növlərindən biri torpağın dağılmasına səbəb olan, humusun yığılmasına və məhsuldarlığa zərər verə biləcək torpaq eroziyasıdır. Əksər hallarda eroziya prosesləri antropogen təsirlər səbəbilə baş verir və inkişaf edir.

41.Qazaxıstan Respublikasında torpaqların keyfiyyət xüsusiyyətlərinə əsaəsən deyilməlidir ki, 29,3 milyon hektar torpaq sahəsi eroziyaya məruz qalıb, 4,9 milyon hektar torpaq sahəsi yuyulub, 24,2 milyon hektar çöküb və 201,7 milyon hektar su və külək eroziyasına məruz qalıb. Yaxşılaşdırılmış 5,8 milyon və suvarılan 106,1 milyon hektar torpaq da daxil olmaqla 186,1 milyon hektar otlaq sahəsi (kənd təsərrüfatına yararlı torpaqlarının 84,1%) səhralaşma və deqradasiyaya ən çox məruz qalan torpaqlardır.

42.2017-ci ildə Qazaxıstan Respublikasında otlaqların səmərəli istifadəsi, otlaq sahələrinin və onların infrastrukturunun yaxşılaşdırılması, həmçinin otlaqların deqradasiyasının qarşısının alınması ilə bağlı ictimai münasibətləri tənzimləyən "Otlaqlar haqqında" Qanun qəbul edilib. Bu qanunun həyata keçirilməsi zamanı Nazirlik tərəfindən hazırlanmış və təsdiq edilmişdir:

- otlaqların səmərəli idarə edilməsi qaydaları;
- otlaqların suvarılması üzrə fəaliyyət planı;
- səhralaşma da daxil olmaqla, otlaqların deqradasiyası və səhralaşma ilə mübarizə metodları;
- otlaqların ümumi sahəsi üzrə yük normalarına yenidən baxılıb.

43.Nazirlik, "Vətəndaşlar üçün Dövlət Korporasiyası" ilə birlikdə, 2017-2021-ci illər üçün Aqrar-sənaye Kompleksinin İnkişafı üzrə Dövlət Proqramı çərçivəsində intensiv istifadə olunan 66 milyon hektarlıq kənd təsərrüfatı torpaqlarında torpaq və geobotanik tədqiqatlar aparır.

**Qırğızıstan**

44. Qırğızıstan Respublikası üçün su və torpaq ehtiyatları dövlət büdcəsinin və təbii, iqtisadi və maliyyə resurslarının formalaşmasında ən vacib mənbələrdən biridir.
45. Ölkədə təbii ehtiyatların davamlı və ehtiyatlı istifadə olunmasına əsaslanan torpaq və su ehtiyatlarının idarə edilməsi mexanizmi torpaq və su ehtiyatlarından istifadənin təkmilləşdirilməsi yollarını və metodlarını müəyyənləşdirir və dövlət büdcəsinin həm vergi, həm də qeyri-vergi gəlirlərinin artmasına şərait yaradaraq bundan sonra da ekoloji cəhətdən əhəmiyyətli idarəetmə addımlarının həyata keçirilməsinə imkan verəcəkdir.
46. Su və torpaq ehtiyatlarının səmərəli idarə olunması üçün Qırğızıstan Respublikasının Torpaq Məcəlləsinin 2 iyun 1999-cu ildə qüvvəyə minmiş ilkin versiyası qəbul edilmiş və 20 il ərzində ona 47-dən çox dəyişiklik və əlavələr edilmişdir. Bu, yer planetinə münasibətin dəyişməsi ilə əlaqədardır. Məcəllə ayrılmaz və məhdudlaşdırılmış torpaqları əmtəə formasına çevirmək və torpaq bazarı yaratmaq üçün ilk cəhd idi. Bu Məcəllənin su və torpaq resurslarının idarə edilməsi konsepsiyası mərkəzləşmədən yayınmaqla güclü yerli idarəetmə səviyyələrinin yaradılmasına - desentralizasiya istiqamətinə yönəldilmişdir. Birinci vəzifə yerinə yetirildi - mərkəzi idarəetmə zəiflədi, yəni "mülkiyyətçinin" su və torpaq ehtiyatlarının idarə edilməsinə təsiri azaldı.
47. Mövcud Torpaq Məcəlləsi su və torpaq ehtiyatlarının və torpaq mülkiyyətinin növlərinin bütövlüyünü bəyan edir. Məcəllədə su və torpaq ehtiyatlarından, çox zəngin yeraltı sərvətlərdən səmərəli istifadə əsas alınıb ki, bu da bütün canlıların həyatının əsas elementi olan torpaq sahələrinin, o cümlədən yeraltı və yerüstü suların əhatə etdiyi ərazilərin səmərəli idarə edilməsini tələb edir. Dövlət büdcəsinin gəlir hissəsinin formalaşmasının 90 faizi müxtəlif torpaq ehtiyatları ilə əlaqələndirilməlidir. Müdafiə, tibb, təhsil, sosial müavinətlər, firavanlıq və həyat, mədəniyyət - ictimai həyatın bütün sahələri bütövlükdə dövlətin gücünü formalaşdırır. Bu baxımdan məcəllə torpaq münasibətləri, iri kənd kollektivinin, kooperativ təsərrüfatların təşkili, onların yaranma səbəbləri, torpaq hüquqlarının həyata keçirilməsi və onlara xitam verilməsi qaydalarını tənzimləyir.
48. İdarəetmədə otlaqlara xüsusi diqqət yetirilir. Otlaqlar qədim ənənəyə görə, atçılıq, qoyunçuluq və maldarlıq ilə məşğul olan kənd sakinlərinin maddi rifahının əsasını təşkil edir. Otlaqlar mədəni ənənənin bir hissəsidir, mənəvi prinsipdir, həyatın əsasıdır. Odur ki, otlaqların Qırğızıstan Respublikasında sadəcə dövlətə məxsus olmalıdır iddiası müzakirə olunmur və bu Qırğızıstan Respublikasının Konstitusiyasında və Qırğızıstan Respublikasının qanunvericiliyində öz təsdiqini tapıb.
49. Mənfi və müsbət təcrübələrə baxmayaraq, Qırğızıstan Respublikasında su və torpaq ehtiyatlarının idarə edilməsi su və torpağa “balanslı və ehtiyatlı münasibətin” tətbiq edilməsi istiqamətində davamlı bir addım atıb. Beynəlxalq prinsiplərə görə, "su" əmtəədir, "torpaq" isə əmtəə deyil və dövlət mülkiyyətində olmalıdır. Buna görə də

ölkədə su və torpaq idarəetmə siyasətini yalnız Qırğızıstan Respublikası tərəfindən müəyyənləşdirir.

50. Su ehtiyatları büdcənin formalaşmasının əsasını təşkil edir. Su ehtiyatlarına TURKPA üzv ölkələrində yeraltı yataqlardan çıxarılan digər enerji ehtiyatlarının bir hissəsi kimi baxılmalıdır. TürkPA-nın üzvü olan qonşu ölkələrin torpaqlarından hasil edilən digər resurslarla su mübadiləsinə icazə verilir. Bu konsepsiya ədalətlidir və bu konsepsiyanın əsas olaraq və TürkPA-nın qanunları kimi istifadə edilməsi ədalətli, tətbiq oluna bilən və məqbul olacaqdır.
51. Su və torpaq ehtiyatlarının idarə edilməsi məqsədləri aşağıdakılardır:

- Qırğızıstan Respublikasının əhalisini içməli su ilə təmin etmək;
- Qırğız Respublikasının ərzaq təhlükəsizliyinin təmin edilməsi üçün bütün kənd təsərrüfatı sahələrinin suvarma suyuna çıxışını təmin etmək;
- kənd təsərrüfatı bitkilərinin becərilməsi məqsədi ilə torpaqların meliorasiyası.

**Türkiyə**

52. Türkiyədə su siyasətindən məsul olan müəssisə Su İdarəetməsi Ümumi Nəzarət Qurumunun da tərkibində olduğu Kənd Təsərrüfatı və Meşəçilik Nazirliyidir. Bəzi xüsusi ərazilərdəki çirkab suları, su resursları və iqlim dəyişikliyinə aid layihələr Ətraf Mühit və Urbanizasiya Nazirliyi nəzdində yerinə yetirilir.
53. Su İdarəetməsi Ümumi Nəzarət Qurumunun yerinə yetirməli olduğu əsas tapşırıqları bunlardır: su resurslarının davamlı istifadəsi və danışıqlar üçün siyasətin sistemləşdirilməsi, qanunların hazırlanması, hövzəyə əsaslanan planlama ilə bazi (iki çay hövzəsi arasındakı sədd) idarəçiliyinin inteqrasiyasını təmin etmək, ölkənin milli və beynəlxalq su idarəçiliyinin əlaqələndirilmək.
54. Türkiyənin cari Milli Su Planı 2019-2023-cü illəri əhatə edir. "Türkiyə tərəfindən formalaşdırılan Milli Su Siyasəti" məqsədlər kontektsində milli su siyasəti və onun həyata keçirilməsinin ümumi müddəalarına 2023-cü ildən başlanacaq; Milli Su Planı (2019-2023) müştərək və vahid yanaşma ilə su resurslarının istifadəsi və mühafizəsini balanslaşdıraraq kəmiyyət və keyfiyyət ilə əlaqəli davamlı idarəçilik üçün hazırlanmışdır.
55. Milli Su Planı ümumi strategiya planıdır. O ölkədəki su resurslarının cari vəziyyətini, gələcək potensiyalı və ölkədəki rayonların coğrafi müxtəlifliyinə əsasən kifayət fərqlənən iqlim vəziyyəti nəzərə alaraq inkişaf etdirilmişdir. Bu minvalla o, milli su siyasətinin tətbiqini təmin etmək üçün mayak rolunu oynayır.
56. Türkiyənin tərəfdar çıxdığı Beynəlxalq Su Konvensiyaları: Birləşmiş Millətlər Təşkilatının Bioloji Müxtəliflik haqqındakı Konvensiyası, Birləşmiş Millətlər Təşkilatının "İqlim Dəyişmələri haqqında" Çərçivə Konvensiyası, Birləşmiş Millətlər

Təşkilatının Ciddi quraqlıq və\və yaxud Səhralaşma baş verən ölkələrdə, xüsusilə də Afrikada səhralaşma ilə mübarizə üzrə Konvensiya, Avropa Landşaft Konvensiyası (Florensiya Konvensiyası), Avropanın canlı təbiətinin və təbii mühitinin qorunması haqqında Avropa Konvensiyası (Bern Konvensiyası), Qara dənizin çirklənməsi əleyhinə konvensiya (Buraxest Konvensiyası), Aralıq dənizinin çirklənməsi əleyhinə konvensiya (Barselona Konvensiyası), Əsasən su quşlarinin yaşama yerləri kimi beynəlxalq əhəmiyyətli olan sulu-bataqlıq yerlər haqqında Konvensiya (Ramsar Konvensiyası).

57. Türkiyədə su siyasətindən məsul olan müəssisə Kənd Təsərrüfatı və Meşəçilik Nazirliyidir. Nazirliyin fəaliyyətləri iki başlıq altında qiymətləndirilə bilər. Bunlara “torpaqların mühafizəsi” və “torpaqların idarəetməsi” daxildir. Kənd Təsərrüfatı Reformasının Ümumi Direktoratlığı torpaq və su resurslarının səmərəli istifadəsi və mühafizəsinin daxil olduğu torpaq idarəetməsi üçün təsis edilmiş müəssisədir. Kənd Təsərrüfatı və Meşəçilik Nazirliyi nəzdindəki Səhralaşma və Eroziya ilə Mübarizə üzrə Ümumi Direktoratlıq torpaqların mühafizəsindən məsul olan müəssisədir.
58. Kənd Təsərrüfatı Reformasının Ümumi Nəzarət Qurumunun məqsədi ucqar ərazilərin daha işlək, istehsala yararlı, məskunlaşma və mühafizəsi mümkün hala gətirmək üçün kənd təsərrüfatı ilə bağlı infrastruktur planları təşkil etməklə kəndlərin inkişafını təmin etməkdən ibarətdir.
59. Səhralaşma və Eroziya ilə Mübarizə üzrə Ümumi Nəzarət Qurumunun məqsədlərinə aşağıdakılar daxildir: təbii resursların səmərəli istifadəsi və davamlı inkişafını təmin etmək,səhralaşma və eroziyaya qarşı mübarizə aparmaq, siyasi planlar, strategiyalar irəli sürmək və onların səmərəli, təsirli icrasını təmin etmək,qlobal miqyasda səhralaşma və eroziya ilə mübarizə aparmaq, Türkiyə təcrübəsini başqa ölkələrdə tətbiq etmək və beynəlxalq təşkilatlar ilə daha əlverişli əməkdaşlığın qurulması aiddir.
60. 2019-2023-cü illəri əhatə edən Kənd Təsərrüfatı və Meşəçilik Nazirliyinin strateji layihəsi düzgün idarəçilik, daxili və xarici tərafdaşların irad və təkliflərini nəzərə almaq prinsiplərinə uyğun formada hazırlanıb. Stratejik planın məqsədləri insan sağlamlığı, iqtisadi və qida ehtiyatının təhlükəsizliyini təmin etməkdir.
61. Torpaq və su resurslarınının idarəçiliyinin davamlı təmin olunması 2019-2023-cü illəri əhatə edən Kənd Təsərrüfatı və Meşəçilik Nazirliyinin Stratejik Layihə Məqsədlərinin ən önəmli maddələrindən biridir.

## V. ÜZV ÖLKƏLƏR ARASINDAKI ƏMƏKDAŞLIQ VƏ NƏTİCƏLƏR

62. Dövlət təhlükəsizliyinin və ərazi bütövlüyünün formalaşmasında su və torpaq ehtiyatlarının rolu əhəmiyyətli və müxtəlifdir. Bu qida istehsalının əsas vasitələri və

təbii əsası, eyni zamanda cəmiyyətin, təfəkkürün, və qida təhlükəsizliyinin inkişafı üçün zəruri şərtdir. Su ehtiyatları və torpaqların səmərəli idarə olunması, onlardan səmərəli istifadə iqtisadi tərəqqinin və ətraf mühitin qorunmasının əsas şərtidir. Buna görə də bu təbii sərvətlərdən səmərəli istifadə məsələləri dövlət siyasətinin prioritet sahələridir.

63. Ekoloji vəziyyətin yaxşılaşdırılması və ətraf mühitin qorunması hədəflərinin dəstəklənməsi məqsədi ilə TURKPA üzv ölkələri su ehtiyatları və torpaqlarla bağlı beynəlxalq hüququn tələblərinə uyğun olaraq bir sıra qanunlar, hüquqi sənədlər və dövlət proqramları hazırlayıb təsdiq etdilər.
64. Torpaq və su ehtiyatlarından davamlı istifadəni təmin etmək və üzv ölkələrdə məlumat xarakterli təlim materialları hazırlamaq üçün resurslarımızın az olduğu barədə təəssüratlar yaratmaq zəruridir. İnsanların problemin fərqində olmasə və onu dərk etməsi məsələnin uğurlu həllində vacib amildir.
65. Elmi prosesin səmərəliliyinin artırılması, qabaqcıl texnologiyaların və resurslardan istifadə mədəniyyətinin inkişafı üzv ölkələrdə torpaq və su ehtiyatlarının davamlı istifadəsi və idarə olunması baxımından çox vacibdir. Çirklənməni minimuma endirməklə torpaq və su ehtiyatlarının qorunmasına diqqət yetirmək lazımdır.
66. Seminar, konfrans və ya təcrübə mübadiləsi proqramları kimi birgə tədbirlər və fəaliyyətlər keçirməklə üzv ölkələr arasında əməkdaşlığın və qarşılıqlı əlaqələrin genişləndirilməsi bu məsələdə əməkdaşlığı gücləndirir.
67. 23-24 yanvar 2019-cu il tarixlərində TÜRKPA tərəfindən Türkiyə Böyük Millət Məclisinin (TBMM) dəstəyi ilə Ankarada keçirilən ‘’Meşələrin təbii sərvətlərinin qorunması və təbii sərvətlərdən ətraf mühitin istifadəsinə dair seminar - qanunvericilik və tətbiqlər” və 29 may 2019-cu il tarixində Qırğızıstan Respublikasının Joqorku Keneşində keçirilən "Təbii ehtiyatların ətraf mühitə müvafiq qaydada istifadə olunması: hüquqi dəstək" mövzusunda TÜRKPA Ətraf Mühit və Təbii Sərvətlər Komissiyasının 5-ci iclası, müvafiq strukturlarımız arasında əməkdaşlığın gücləndirilməsində mühüm rol oynamışdır.
68. Bu cür görüşlərin təşkili üzv ölkələrdə cəmiyyətin xeyrinə torpaq və su ehtiyatlarından istifadənin qorunması üçün zəruri olan hüquqi tənzimləmələrin həyata keçirilməsinə imkan verəcəkdir.
69. Eyni zamanda, bu cür görüşlərin təşkili TÜRKPA-nın əsas fəaliyyət istiqamətlərindən biri olan müvafiq sahələrdə model qanunların inkişafına və hazırlanmasına öz töhfəsini verəcəkdir.
70. Aparıcı beynəlxalq təşkilatlar və inkişaf etmiş ölkələrlə müvafiq sahələrdə əlaqlərin genişləndirilməsi və üzv olduqları beynəlxalq təşkilatların və tərəfdaş olduqları beynəlxalq razılaşmalar çərçivəsində olan əməkdaşlıq TÜRKPA üzv ölkələrinin ətraf mühitin çirklənməsini minimuma endirmək və mühafizəni gücləndirmək üçün ekoloji siyasətinin başlıca istiqamətləri olmalıdır.

71. TURKPA üzv ölkələrində ehtiyatların qərəzsiz idarə olunması qaydasına nail olmaq üçün su və torpaq idarəetməsi hər şeydən əvvəl ədalətli olmalıdır.